AZƏRBAYCAN www.azerbaijan-news.az

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 121 **QƏRAR** Bakı şəhəri, 11 mart 2016-cı il

# "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti və "Bakıelektrikşəbəkə" Açıq Səhmdar Cəmiyyəti arasında Elektrik enerjisinin satınalma Müqaviləsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 17 sentyabr tarixli 138 nömrəli qərarında dəyişikliklər edilməsi barədə

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 4 may tarixli 1206 nömrəli Sərəncamının 3.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərenerji" Açıq Səhmdar Cəmiyyəti və "Bakıelektrikşəbəkə" Açıq Səhmdar Cəmiyyəti arasında Elektrik enerjisinin satınalma Müqaviləsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 17 sentyabr tarixli 138 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 9, maddə 915; 2009, № 12, maddə 1065; 2014, № 2, maddə 201) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında, preambulasında və 1-ci hissəsində "Bakıelektrikşəbəkə" sözü "Azərişıq" sözü ilə əvəz edilsin.

2. Həmin qərarla təsdiq edilmiş "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti və "Bakıelektrikşəbəkə" Açıq Səhmdar Cəmiyyəti arasında Elektrik enerjisinin satınalınma Müqaviləsi" üzrə:

2.1. adında və preambulasında "Bakıelektrikşəbəkə" sözü "Azərişıq" sözü ilə əvəz edilsin;

2.2. "1. Anlayışlar" hissəsi üzrə:

2.2.1. üçüncü abzasın 1-ci sütununda "Bakıelektrikşəbəkə" (BEŞ)" sözləri "Azərişıq" sözü ilə əvəz edilsin və həmin abzasın 2-ci sütunu aşağıdakı redaksiyada verilsin:

"Azərişıq" Açıq Səhmdar Cəmiyyəti haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 10 fevral tarixli 1045 nömrəli Sərəncamına əsasən "Bakıelektrikşəbəkə" Açıq Səhmdar Cəmiyyətinin adı dəyişdirilərək yaradılmış və "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 4 may tarixli 1206 nömrəli Sərəncamı ilə fəaliyyəti təmin edilmiş açıq səhmdar cəmiyyəti nəzərdə tutulur.";

2.2.2. dördüncü abzasda "BEŞ-in" sözü "Azərişıq" ASC-nin" sözləri ilə əvəz edilsin;

2.2.3. on yeddinci abzasda "Bakıelektrikşəbəkə" sözü "Azərişıq" sözü ilə əvəz edilsin;

2.3. 13.3-cü bənddə, imzalanma qrifində və 2 nömrəli əlavədə "Bakıelektrikşəbəkə" sözü ismin müvafiq hallarında "Azərişıq" sözü ilə əvəz edilsin.

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***